

**FİKRƏT İSMAYILOV,**
Milli Elmlər Akademiyasının
Fotoelektronika İnstitutunun şöbə müdiri

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN TƏRƏQQİSİ

*Xalqımızın, Vətənimizin, Respublikamızın*
*taleyi hər bir insanın taleyinə çevrilməlidir!*

***Heydər Əliyev***

Azərbaycanın qurtuluşu, tərəqqisi və gələcək təşəkkülü Heydər Əliyevin respublikada apardığı islahatlarla üzvi surətdə bağlıdır!

Mənalı ömrünü xalqına həsr eləmiş, qalan ömrümü də xalqıma qurban verməyə hazıram, - deyən Azərbaycanın xilaskar oğlu, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Möhtərəm Heydər Əlirza oğlu Əliyevin fəaliyyəti haqqında fikir söyləyərkən onun:- marifçi, filosof, tarixçi-etonqraf, ədəbiyyatçı, həkim, islamşünas, maşınqayıran, metallurq, dünya şöhrətli dövlət xadimi-diplomat kimi tam siyahısı olmayan geniş bilik və fəaliyyət sahələrini kompleks şəkildə nəzərə almadan söhbət açmaq mümkün deyildir.

Bunu nəzərə alaraq, Heydər Əliyevin müasir Azərbaycanın təşəkkülündəki xidmətlərinin ayrı-ayrı dövrlərinə nəzər salmaq daha məqsədəuyğun olardı.

Belə ki, Heydər Əliyev Azərbacyan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifəyə təyin olunana qədər bu komitədə azərbaycanlı kadırlar yox dərəcəsində idi. Məhz Heydər Əliyevin sayəsində bu komitədə milli kadrların sayı artmağa başladı, o dövrdə yüzlərlə azərbaycanlı kommunist partiyası, sovet hakimiyyətinin təqibindən xilas oldu.

Bir tarixi həqiqəti də xüsusi qeyd etmək lazımdır ki, Heydər Əliyev Azərbaycanın həmişə ağır günlərində rəhbərliyə gəlmiş, xilaskarlıq missiyasını yerinə yetirmişdir.

1960-cı illər Azərbaycan iqtisadi böhran içərisində idi. Azərbaycan iqtisadi və sosial vəziyyətinə görə keçmiş müttəfiq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. Belə bir ağır şəraitdə Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbərliyə təyin olunması olkəni iqtisadi böhrandan xilas etdi.

Bu dövrdə Azərbaycanda irili - xırdalı 250-dən artıqsənaye və istehsal müəssisələri - Azərbaycan Elektrik Qızdırıcıları zavodu, Dərin Qazma Özüllər zavodu, Bakı Kondisonerləri zavodu, Soyuducular zavodu, Hesablama Maşınları zavodu, OZON zavodu, Gəncə Avtomobil zavodu, Müasir Texnologiya ilə işləyən Neftayırma zavodları kimi sənaye və emal müəssisələri yaradıldı ki, bu müəssisələr də respublikanın iqtisadiyyatında mühüm rol oynamağa başladı.



O dövrdə Azərbaycanın kənd təsərrüfatı geri qalmış sahələrdən biri idi. Heydər Əliyevin gördüyü tədbirlər sayəsində kənd təsərrüfatında ciddi irəliliyirşlər əldə olundu. Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf etməyə başladı. Azərbaycan kəndlisinin iqtisadi sosial vəziyyəti xeyli yaxşılaşdı.

Heydər Əliyev 1991-93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu vaxt ölkədə məhsul bolluğu yaratmaq üçün tədbirlər planı işləyib hazırlamış və Naxçıvan Muxtar Respublikasında həyata keçirmişdir. 1993-cü ildə respublikaya rəhbərliyə gəldikdən sonra respublikada aqrar islahatlar keçirilməsi ön plana çəkildi. Kolxoz və sovxozların münbit torpaq sahələri, malqarası, texnikası təmənnasız olaraq kəndlilərə paylanıldı. Bununla da ölkədə məhsul bolluğunun təməli qoyuldu.

Azərbaycanın təbii sərvətlərinin qorunması, bu sərvətlərə qayğı Əliyevlər nəslinə xas olan irsi xüsusiyyətdir. Möhtərəm Heydər Əliyev hakimiyyətə gəldiyi gündən Bakı ətrafında meşə zolaqlarının salınması, Dənizkənarı parkın Milli Park elan olunması, təbii qoruqların yaradılması, məhv olmuş meşə sahələrinin bərpası və yeni meşələrin salınması, ümumiyyətlə, təbii sərvətlərə, ətraf mühitin ekoloji tarazlığının qorunub saxlanılması problemləri ön plana çəkilmiş, bu problemləri dövlət səviyyəsində tənzimləmək üçün Ekologiya və Təbii sərvətlər Nazirliyi yaradılmışdır.

1970-85-ci illəri Azərbaycan elm, təhsil, ədəbiyyat və incəsənətinin intibah dövrü adlandırmaq olar.

Azərbaycanda elmin, sənayenin yeni sahələrinin yaradılması və inkişafını uzaqgörənliklə planlaşdıran Heydər Əliyev respublikada təhsilə xüsusi diqqət yetirirdi. Belə ki, Neft Akademiyasının Sumqayıt filialına müstəqil Sumqayıt Universiteti statusunun verilməsi, Gəncə Texnoloji İnstitutunun, o dövr üçün xüsusi cəsarət, qətiyyət tələb edən C.Naxçıvanski adına hərbi məktəbin və başqa ali təhsil müəssisələrinin yaradılması, mövcud ali təhsil məktəblərində yeni fakültə və kafedraların açılması, təhsil müəssisələrinin maddi texniki bazalarının gücləndirilməsi, elm və texnikanın müxtəlif sahələri üzrə mütəxəssislər hazırlamaq məqsədilə hər il SSRİ-nin ən mötəbər ali təhsil müəssisələrinə minə qədər azərbaycanlı oğlan və qızların göndərilməsi məhz Heydər Əliyevin birinci hakimiyyəti dövründə şəxsi qayğı və təşəbbüsü sayəsində həyata keçirilirdi. Bu gün respublikamızda dövlət idarəçiliyi, təsərrüfat, elm, təhsil sahələrində fəaliyyət göstərən mütəxəssislərin əksəriyyəti demək olar ki, Heydər Əliyevin məhz o dövrdə hazırladığı kadrlarıdır.

Azərbaycan elmi Heydər Əliyevin hakimiyyəti dövründə xüsusi təşəkkül tapmışdır.

1970-85-ci illər ərzində Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində elmin müasir sahələri üzrə günün tələblərinə uyğun bir çox elmi tədqiqat institutları, xüsusi konstruktor büroları və sahə institutları yaradıldı. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının Fizika - riyaziyyat və texnika elmlər bölməsi üzrə 1971-ci ildə avtomatlaşdırılmış idarəetmə sistemləri, 1978-ci ildə MEA Riyaziyyat və Mexanika İnstitutunun nəzdində Xüsusi Konstruktor bürosu,

1979-cu ildə Kristali Xüsusi Konstruktor bürosu, 1981-ci ildə Registri Xüsusi Konstruktor bürosu, ümumiyyətlə 10-a qədər yeni elmi-tədqiqat institutları və xüsusi konstruktor büroları yaradılmışdı.

Kimya elmləri bölməsi üzrə 1974-cü ildə Təcrübi-Sənaye zavodu, 1982-ci ildə Reagentləri üzrə xüsusi konstruktor-texnologiya bürosu, 1980-ci ildə Aşqarlar xüsusi texnologiya bürosu, 1972-ci ildə QÜFKİ-nin nəzdində Naxçıvan Elm Mərkəzi, 1981-ci ildə Aşqarlar Kimyası İnstitutu nəzdində Gəncə Elm Mərkəzi yaradıldı. 1978-ci ildə NKPİ-nin nəzdindəki Sumqayıt filialına institut statusu verilmiş və Xlor üzvi Sintez İnstitutu adlandırılmışdı.

Bu bölmədə 1970-85-ci illər ərzində elmin yeni sahələri üzrə 10-dan artıq yeni elmi-tədqiqat institutları və xüsusi konstruktor büroları yardılmışdır

Biologiya elmlər bölməsi üzrə Heydər Əliyev hakimiyyəti dövründə 1972-ci ildə Mikrobiologiya İnstitutu müstəqil sektor olmuş və 1994-cü ildə İnstituta çevrilmişdir.

İctimai elmlər bölməsi üzrə 1974-cü ildə Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır.

Heydər Əliyevin birinci hakimiyyəti dövrundə 300 nəfərə qədər Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvü seçilmişdir.

Bütün bunlar respublikada müasir elmlərin təşəkkül tapmasında Heydər Əliyev qayğısının təzahürü idi.

1970-1986-cı illəri Azərbaycan ədəbiyyatı, incəsənəti və musiqisinin sözün əsl mənasında təşəkkül dövrü adlandırmaq olar. O dövrdə ədəbiyatımızın inkişafında xüsusi xidmətləri olan xalqımızın görkəmli yazıçı və şairlərinə M.İbrahimov, R.Rza, M.Hüseyn, S.Rüstəm, H.Arif, M.Araz, B.Vahabzadə, C.Novruz və başqalarına Xalq şairi, Xalq yazıçısı fəxri adlarının verilməsi, dünya şöhrətli musiqi və incəsənət xadimlərinin Q.Qarayev, F.Əmirov, Niyazi, A.Məlikov, R.Behbudov, Z.Xanlarovaya o dövr üçün şərəfli, fəxri ad sayılan SSRİ Xalq artisti, görkəmli rəssam T.Salahova SSRİ Xalq rəssamı adı verilməsi məhz Heydər Əliyevin təşəbbüsü və nüfuzu sayəsində mümkün olmuşdur.

Görkəmli, ədəbiyyat, incəsənət və elm xadimlərinin irsinin öyrənilməsi, yubileylərinin keçirilməsi, onların xatirələrinin yad olunması, gənc nəsillərə keçmiş irsimizə hörmət, vətənpərvərlik hissələrini aşılamaqdır.

Heydər Əliyevin ikinci hakimiyyətə gəlişi Azərbaycanın çox ağır günlərinə təsadüf edirdi.

Etiraf etmək lazımdır ki, 1988-93-cü illərdə Azərbaycan ağır-böhranlı günlərini keçirirdi, respublika məhv olmaq, dünya xəritəsindən silinmək təhlükəsi qarşısında idi. Müsavat-AXC iqtidarı ölkəni idarə edə bilmirdi. Ölkəni zəka, etiqad yox güc-zor idarə edirdi ki, bunun da axrı fəlakətlə nəticələnməli idi.

Ölkəni bu ağır vəziyyətdən xilas etmək məqsədilə bir qrup ziyalı (91-lər) yeni siyasi partiya yaratmaq üçün Heydər Əliyevə müraciət etdilər. Heydər Əliyev bu müraciətə müsbət cavab verərək, 1992-ci ildə Naxçıvan şəhərində zəmanəmizin ən mütərəqqi partiyası olan Yeni Azərbaycan Partiyasını yaratdı və yekdilliklə Heydər Əliyev bu partiyanın sədri seçildi.



Belə ağır şəraitdə ölkənin müdrik təcrübəli rəhbərə ehtiyacı var idi. Belə bir rəhbər o dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev idi. Heydər Əliyevin xalqın təkid və tələbi ilə hakimiyyətə gəlməyə razılıq verməsi xalqı-ölkəni məhv olmaqdan xilas etmək idi; xilas etmək isə müdrik-kamil insanlara xas olan xüsusiyyətdir.

XI əsr Şərqin görkəmli, mütəfəkkir filosof şairi Ömər Xəyyam "Əsl kamil hökmdarın müdrikliyi, ədalətliyi nədən yaranır? - sualına belə cavab vermişdir: -İnsanda olan ədalətlilik onun əbədiyyətlə bağlılığını göstərən ölçüdür. O hökmdar əsl ədalətli, müdrik hökmdar hesab olunur ki, o etiqadla qüvvəni birləşdirə bilsin. Əgər ölkədə qüvvə etiqadı əvəz edir, etiqad isə qüvvənin varlığını inkar edirsə, tez, yaxud gec o ölkədə fəlakət gözləyin.

Məhs Azərbaycanda 1993-cü ildə səriştəsiz dövlət başçılarının ucbatından bu fəlakət baş verdi, Heydər Əlyiev bu fəlakətin qarşısını aldı. XI əsrdə əsl kamil, müdrik dövlət başçısına verilən tərif öz ünvanını XX əsrin ikinci yarısında məhz Heydər Əliyevin şəxsində tapdı.

Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə gəldiyi gündən ilk növbədə qeyri-qanuni silahlı qüvvələri ləğv edərək, ölkə daxilində ictimai-siyasi asayişi bərpa etdi, hərbin qanunları əsasında ordu quruculuğuna başladı. Ermənistan-Azərbaycan arasındakı müharibəni dayandıraraq, atəşkəsi bərqarar etmək kimi çox mühüm bir məsələni həll etdi. Növbəti vəzifə müstəqil Azərbaycanın gələcək hərtərəfli inkişaf proqramını müəyyənləşdirmək və bu proqramı həyata keçirməkdən ibarət idi. Bu məsələləri Möhtərəm Heydər Əliyev çox uzaqgörənliklə ölkə iqtisadiyyatının inkişaf etdirilməsindən başladı.

Ölkə iqtisadiyatını inkişaf etdirmək, dağıdılmış istehsal sahələrini bərpa etmək, yeni sənaye müəssisələri yaratmaq, əhalinin məşğulluğunu təmin etmək Üçün Nədən başlamaq sualına cənab Prezident çox uzaqgörənliklə Neft Strategiyasından başlamağı qərara aldı. "Əsrin Müqaviləsi" imzalandı, xarici sərmayə, müasir texnologiya ölkəyə cəlb olundu. Bu siyasətdə öz bəhrəsini verməkdədir.

Növbəti vəztifə Müstəqil Azərbaycan Respublikasının dövrün tələblərinə uyğun dövlət və idarəetmə strukturunda islahatlar aparılması idi ki, bu məsələni də Heydər Əliyev özünəməxsus müdrikliklə həll etdi. Müstəqil Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyanı işləyib hazırladı, Avropa Şurasının standartlarına uyğun olaraq Konstitusiyada düzəlişlər aparmaq üçün Referendum keçirildi.

Alimə, müəllimə hörmət, elmə, təhsilə qayğı Möhtərəm Heydər Əliyevə xas olan bir xüsusiyyətdir. İkinci hakimiyyətə gəlişindən sonra ali təhsil müəssisələrinə universitet statusunun verilməsi, günün tələblərinə uyğun, planlı özəl universitetlər şəbəkəsinin genişləndirilməsi, mövcud universitetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə onlara yeni statusların verilməsi ölkədə yüksək ixtisalı kadrlar yetişdirilmiəsinə qayğının təzahürüdür.

Məlum həqiqətdir ki, elmin əsasları ümumtəhsil məktəblərində qoyulur. Bu ali məktəblər üçün gələcək hazırlıqlı tələbələr yetişdirilməsinin əsasıdır. Möhtərəm Heydər Əliyev bununla əlaqədar orta ümumtəhsilə daim qayğı göstərir.

Belə ki, son vaxtlar təhsil işçilərinin əmək haqqının üç dəfə atrırılması, 17 fevral 2003-cü ildə Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir avadanlıqlarla təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında sərəncam imzalamış, ümumtəhsil sisteminin inkişaf etdirilməsi sahəsində Dövlət-Heydər Əliyev qayğısının bariz nümunəsidir.

Növbəti vəzifə ali və ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin yaxşılaşdırılması sahəsində dövlət proqramlarının, Heydər Əliyev tövsiyələrinin həyata keçirilməsidir ki, bu şərəfli vəzifə müəllim kollektivinin üzərinə düşür.

Məlum həqiqətdir ki, Müsavat-AXC hakimiyyəti Milli Elmlər Akademiyasının mənа, mahiyyət, əhəmiyyətini dərk etmədiyindən onu lazımsız qurum kimi ləğv etmək istəyirdilər. Məhz, geniş əhatəli, dərin bilikli şəxsiyyət elmə qiymət verib, qayğı göstərə bilər. Belə bir şəxsiyyət Heydər Əliyev oldu.

Azərbaycanda elmin inkişafını təşkil və təmin edən, əsl dövlətin elmi və elmi-texniki siyasətinin həyata keçirilməsi, elmin bütün sahələrinin əlaqələndirilməsi sahəsində Milli Elmlər Akademiyasında əsaslı islahatlar aparıldı.

-Müasir tətbiqi Elmi-Tədqiqat İnstitutlarının; Milli Elmlər Akademiyası Naxçıvan filialının, Milli Elmlər Akademiyası Radiasiya Tədqiqatları İnstitutunun yaradılması;

-iqtisadiyyat, informatika sahələri üzrə tədqiqat işlərinin gücləndirilməsi;

-universitetlərdə Elmi-Tədqiqat İnstitutları şəbəkəsinin genişləndirilməsi;

- Elmi-Tədqiqat İşlərinin genişləndirilməsi, əlaqələndirilmək məqsədilə Milli Aerokosmik Agentliyinin Milli Elmlər Akademiyasının tərkibinə verilməsi;

-Milli Elmlər Akademiyası rəhbərliyinə gənc və bacarıqlı alimlərin cəlb olunması;

-Milli Elmlər Akademiyası işçilərinin əmək haqqının iki misli qədər artırılması, alimə qayğının, elmə verilən qiymətin təzahürüdür.

Öz saflığı, müsiqi yönəmliyi, az sözlə geniş dərin məna ifadəliyi-poetik yönəmliyi, başqa dillərdən fərqli olaraq, riyazi modelləşməyə daha çox uyğun gələn, vaxtilə sıxışdırılmış dilimizin üzərində dərin elmi-tədqiqat işlərinin aparılması daima Heydər Əliyevi düşündürmüşdür.

Hələ əski sovetlər dövründə, 1978-ci ildə Heydər Əliyev çox böyük cəsarət və qətiyyət göstərərək, Azərbaycan dilini Dövlət dilii elan etmişdir.

Möhtərəm Prezident Heydər Əliyev 1995-ci ildən başlayaraq Azərbaycan Respublikasında latın qrafikasına keçid, Azərbaycan dilinin dövlət dili olaraq, bütün səviyyələrdə yazışmaların azərbaycan dilində aparılmasını öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri hesab edərək, dilimizin daha da inkişaf etdirilməsi, yad ünsürlərdən təmizlənməsini təmin etmək üçün dilçi alimlərlə dəfələrlə müzakirələr keçirmiş, onlara öz tövsiyələrini vermiş və Dövlət Dil Komissiyası yaratmışdır.

Dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi ilə əlaqədar olaraq, Möhtərəm Prezidentimiz Azərbaycan Respublikasında dövlət dili haqqında 2 yanvar 2003-cü ildə fərman imzalamışdır.



Bütün bunlar Heydər Əliyevin xalqımızın milli-mənəvi sərvəti olan Azərbaycan dilinə, onun gələcək inkişafına qayğısının təzahürüdür.

Heydər Əliyev tarixçi-etnoqrof, memar kimi daima real tariximizin, tarixi memarlıq abidələrimizin qorunması, gələcək nəsillərə çatdırılması və dərindən tədqiqinə həmişə diqqət və qayğı ilə yanaşmışdır.

Heydər Əliyevin dediyi kimi, xalqımız çox böyük bir tarixə malikdir. Tariximinzin hər bir dövrü bizim üçün əzizdir. Xalqın keçmişinin ayrılmaz səhifəsidir.

Tariximizin parlaq-şərəfli səhifələri də, qaranlıq-kədərli səhifələri də var. Xalqımız əsrlər boyu təqib və təzyiqlərə məruz qalmış, tariximizin müəyyən dövrləri, ələlxüsus XIX-XX əsr dövrləri yazılarkən təhrif olunmuş, işğalçıların iradəsinə tabe etdirilmişdir. Buna baxmayaraq, dilini, adət-ənənəsini, mənsub olduğu dinini, ümumiyyətlə varlığını qoruyub saxlamışdır.

Bütün bunları nəzərə alaraq, tariximizə qayğı ilə yanaşan Heydər Əliyev əsrlər boyu tariximizin yazılmasında yol verilmiş bu təhrifləri aradan qaldırmaq üçün təhriflərə yol vermədən əsl, real tariximizin yenidən tədqiq olunması, işlənməsini tarixçi alimlər qarşısında müqəddəs vəzifə kimi qoymuşdur. Tarixi memarlıq abidələrimiz, onların bərpası, qorunub gələcək nəsillər üçün saxlanılmasına Heydər Əliyev xüsusi qayğı ilə yanaşmışdır.

Bu qayğının nəticəsidir ki, 1977-ci ildə nadir tarixi memarlıq abidələri ilə zəngin olan Ordubad, Şəki, İçərişəhəri qoruq şəhərlər elan etmişdir.

Kommunist ideologiyasının qurbanı olmuş, bir çox tarixi memarlıq abidələrimizin, dini ziyarətgah və ibadətgahlarımızın - Suraxanı Atəşgahının, Bibiheybət məscidinin və bunun kimi dağıdılmış onlarla ziyarətgahlarımızın yenidən bərpa və inşa olunması keçmişimizə, dinimizə, ata-babalarımızın ruhuna hörmətin təzahürüdür.

Tarixi memarlıq abidələrinin toxunulmazlığı, qorunub saxlanılması məqsədilə Möhtərəm Heydər Əliyev 17 fevral 2003-cü il tarixdə Bakı şəhərində İçərişəhər tarixi-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalamışdır.

Xüsusi qeyd etmək lazımdır ki, müasir Azərbaycan memarlığının nümunəsi olan, məna və görkəmi cəhətdən diqqəti cəlb edən H.Cavidin məqbərəsi üzərində, Şəhidlər Xiyabanında şəhidlərin xatirəsinə yüksəldilmiş və bunun kimi son illərdə Azərbaycan ərazisindəki memarlıq abidələri məhz Heydər Əliyevin şəxsi təşəbbüsü, dəyərli məsləhətləri əsasında yaradılmışdır.

Gənclərimizin milli-mənəvi dəyərlərimiz, adət və ənənələrimiz ruhunda, fiziki cəhətdən sağlam tərbiyə olunması Heydər Əliyev siyasətində əsas yer tutur.

Gəncləri pis əməllərdən çəkindirmək, səmərəli, məqsədyönlü məşğulluğunu təmin etmək, ölkədə idman hərəkatını genişləndirmək məqsədilə Gənclər İdman Turizim Nazirliyi yaradılmışdır.

Burada şərh olunan məsələlər Heydər Əliyevin xalq, Vətən qarşısındakı xidmətlərinin cüzi bir hissəsini əhatə edir. Möhtərəm Prezidentimizin qarşıda görəcəyi işlər çoxdur.